Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği**



# Şuşanın yeni qanuni statusu - mədəniyyət və dövlətçilik tariximizdə açılmış yeni səhifə...

**Prezident İlham Əliyev 8 noyabr 2020-ci il tarixində Şuşanın müzəffər ordumuz tərəfindən düşmən işğalından azad edilməsi müjdəsini xalqımıza çatdırarkən qeyd edirdi ki, Şuşasız bizim işimiz yarımçıq qalardı: "İşğal edilmiş torpaqların hər bir qarışı, hər bir şəhər bizim üçün doğmadır, əzizdir. Mənim üçün hər bir kəndin dəyəri, qiyməti o biri kəndlə müqayisədə, o biri şəhərlə müqayisədə eynidir, bərabərdir.**

Ancaq siz də yaxşı bilirsiniz ki, Şuşanın Azərbaycan xalqının qəlbində xüsusi yeri var. Bu, bizim tarixi şəhərimizdir, qədim mədəniyyət ocağıdır. Şuşa Azərbaycan xalqına bir çox istedadlı, dahi şəxslər bəxş edibdir. Əlbəttə ki, Şuşasız bizim işimiz yarımçıq olar".

Uzun illər düşmən əsarətində qalsa da, lakin ona baş əyməyən, sınmayan, məğrurluğunu qoruyan Şuşa bu gün özünün ən yüksək, ehtişamlı tarixi dövrünü yaşayır. Prezident İlham Əliyevin sərəncamı ilə azad Şuşanın "Azərbaycanın mədəniyyət paytaxtı" elan edilməsi tariximizdə ayrıca bir səhifə yaratdı.

İşğal dövründə düşmənin min bir saxtakarlığı ilə üz-üzə qalan Şuşada Azərbaycan mədəniyyətinin, tarixinin, ədəbiyyatının, arxeologiyasının, etnoqrafiyasının, elminin möhtəşəm örnəkləri yaranıb. Pənahəli xan tərəfindən əsası qoyulandan indiyə kimi Şuşa nəinki Azərbaycanda, bütövlükdə, Qafqazda möhtəşəm bir şəhər, özü də qala şəhər kimi tanınır. Şuşa bütün Qafqazın, Türk dünyasının, İslam aləminin qəlbidir desək yanılmarıq. Bu gün Şuşanın qəlbi başqa bir ahənglə döyünür. Şuşa yenidən qurulur, tikilir, öz libasını geyinir.

Prezident İlham Əliyev Şuşaya xüsusi münasibət bəsləyir, bu şəhərimizin tarixi görkəminin özünə qaytarılması üçün çox mühüm sənədlər imzalayıb və Şuşanın qorunması, mühafizəsi üçün bütün müvafiq tədbirlərin həyata keçirilməsini reallaşdıran addımlar atıb.

**Cıdır düzündə "Xarıbülbül"...**

Şuşa işğaldan azad edildəndən sonra Prezident İlham Əliyev Şuşada "Xarıbülbül" musiqi festivalının və Vaqif poeziya bayramının bərpa edilməsi ilə bağlı təşəbbüs irəli sürdü və sərəncam imzaladı. Mayın ortalarında isə ölkə başçısı İlham Əliyevin və ailə üzvlərinin iştirakı ilə Şuşada - Cıdır düzündə "Xarıbülbül" musiqi festivalı keçirildi. Şuşa bir daha dünyaya Azərbaycan şəhəri olduğunu göstərdi, sübut etdi. Buradan dünyaya çox vacib mesajlar verildi. Dost sevindi, düşmənin ürəyi çatladı.

**Şuşa şəhəri haqqında ayrıca qanun...**

Şuşanın tarixi, strateji, siyasi, mədəni əhəmiyyəti o qədər böyükdür ki, bunu nə iləsə müqayisə etmək çətindir. Şuşa hələ Pənahabad adlandırıldığı dövrlərdə dünyanın diqqətində idi, Rusiyanın, İranın, başqa ölkələrin ən böyük maraq göstərdiyi, əlaqə qurmaq istədiyi şəhər idi. Bu gün də Şuşa öz tarixi əhəmiyyətini qoruyur.

Məlum olduğu kimi, Milli Məclisdə Şuşa ilə bağlı ayrıca qanun qəbul olunub. "Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında" Azərbaycan Respublikası Qanununun layihəsinin qəbul edilməsinin özü də çox mühüm hadisədir. Qəbul edilən qanunda Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhərinin inzibati sərhədləri daxilində Şuşa şəhəri Dövlət Qoruğu yaradılması, Şuşa şəhəri Dövlət Qoruğunun qorunması və bərpası üçün xüsusi fondun yaradılması, Şuşa şəhərinin ərazisində ekoloji təmiz nəqliyyat vasitələrinə üstünlük verilməsi kimi məsələlər nəzərdə tutulur.

Şuşanın hərtərəfli qorunması, mühafizəsi olduqca vacib olduğu üçün bu barədə xüsusi qanunvericilik aktının olması zəruri idi. Şuşanın qoruq elan olunması olduqca zəruri idi və bu reallaşır.

**Tarixi Azərbaycan şəhərindən tarixi mesaj...**

Heç şübhəsiz ki, "Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında" Qanunun qəbul edilməsi ictimaiyyət tərəfindən də çox müsbət qarşılanır. Memarlar və tarixçilər hesab edirlər ki, Şuşa haqqında ayrıca qanunun qəbul edilməsi Şuşanın qorunmasına şərait yaradır. İşğaldan azad edilənə qədər ermənilərin hər cür vandalizm aktı törətdikləri Şuşanın bu gün canlandığını deyən ekspertlərin sözlərinə görə, Şuşanın bərpa edilən hər bir tarixi abidəsi, hər bir müqəddəs ocağı qorunub mühafizə edilməlidir.

**Şuşanın qoruq elan edilməsi tarixi qərardır**

"Qarabağa aparan yol" qəzetin baş redaktoru, AYB üzvü, şair-publisist Əli Mahmud hesab edir ki, Şuşa haqqında xüsusi qanun qəbul edilməsi Ermənistana və onu dəstəkləyən qüvvələrə çox böyük bir mesaj oldu. Şuşanın dövlət siyasətində xüsusi istiqamət təşkil etdiyini deyən Ə.Mahmudun sözlərinə görə, Şuşa haqqında qanunun qəbulu və Şuşanın qoruq elan edilməsi tarixi qərardır və bunu gələcək nəsillər də təqdir edəcəklər. "Şuşanın düşmən işğalından azad edilməsi dünyada bənzəri olmayan bir mücadilə ilə reallaşıb. Əlbəttə, 28 il ərazində düşmən Şuşada çoxsaylı saxtalaşdırma işi aparmışdı. Onların hamısı sizə məlum olduğu üçün bir-bir saymaq istəmirəm. Düşmənin vurduğu ən böyük zərbələrdən biri tarixi, arxeoloji, mədəni abidələrimizdən bizim milli indentikliyimizi silmək idi, amma ona nail ola bilmədi. Düşmən nə qədər saxtalaşdırma aparsa da, milli kimliyimizi silə bilməyib, çünki hər qaya parçasında bizim izimiz var. Düzdür, düşmən saxtalaşdırma aparıb, amma bütün o saxtalaşdırmalar hamısı həqiqətin qarşısında əriyir. "Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında" Qanunun qəbul edilməsini böyük fəxr və qürur hissi ilə qarşıladıq. Şuşa sakinlərinin hər birinin arzusu abad Şuşaya qayıtmaqdır. Şuşa haqqında qanunun qəbul edilməsinin çox böyül siyasi, tarixi və mənəvi əhəmiyyəti var, bu danılmazdır. Cənab Prezident Şuşanın yenidən qurulmasına, bərpasına xüsusi diqqət göstərir. Burada gedən bütün proseslərin cənab Prezidentin diqqətində olması onu göstərir ki, Şuşa öz tarixi görkəminə tam olaraq qaytarılacaq. Əlbəttə,

cənab Prezidentin Şuşaya dəfələrlə səfər etməsi, buradan dünyaya çox mühüm mesajlar verməsi bizi çox qürurlandırır. Eyni zamanda da Prezident tərəfindən Şuşanın Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi, "Xarıbülbül" musiqi festivalının əziz şəhidlərimizin xatirəsinə həsr edilməsi çox mühüm hadisə oldu. Bütün bunların ardınca isə belə bir qanunun qəbul edilməsi təkcə Azərbaycanın deyil, bütün Türk dünyasının, İslam aləminin, Qafqazın incisi olan Şuşanın, bütün mənalarda, Azərbaycan üçün nə qədər böyük əhəmiyyət daşıdığını, Şuşanın Azərbaycan xalqının həyatında hansı rol oynadığını ortaya qoydu".

**"Şuşanın statusunu və təhlükəsizliyini möhkəmləndirən..."**

Ə.Mahmud bildirdi ki, Şuşa tarixi şəhər olduğu üçün onun qoruq elan edilməsi tamamilə doğrudur. Onun sözlərinə görə, Prezident İlham Əliyev bizim Şuşaya əbədi qayıtdığımızı bəyan edib. Müsahibimizin sözlərinə görə, artıq Şuşanın qorunması ayrıca qanunvericilik şəklində həyata keçiriləcək. Ə.Mahmudun fikrincə, Şuşanın qoruq elan edilməsi həm də ona görə yaxşıdır ki, bura icazəsiz daxil olmaq mümkün olmayacaq və şəhər, bütün mənalarda, mühafizə ediləcək.

Qeyd edək ki, digər ekspertlərə görə, Şuşaya verilən status onun gələcəyinin daha da etibarlı qorunduğunu ortaya qoyur. Bir sıra fikirlərə görə, Azərbaycanın mədəniyyət paytaxtı kimi Şuşanın statusunu və təhlükəsizliyini möhkəmləndirən və onu əbədi edən bu təşəbbüs dostlarımızı sevindirdiyi kimi, dünya ermənliyini və onların havadarlarını da o qədər məyus edəcək, regionda Azərbaycanın xeyrinə dəyişmiş geosiyasi mühitə də müsbət mənada təsirsiz ötüşməyəcək.

Ekspertlər onu da deyirlər ki, Şuşanın statusunun hərtərəfli şəkildə möhkəmləndirilməsi gələcəkdə Şuşanın UNESCO-nun müvafiq siyahısına daxil olmasına imkan verəcək. Şuşanın tarixi mərkəzinin UNESCO-nun siyahısına daxil edilməsi üçün müraciətlər edildiyini deyən ekspertlərin bildirdiyinə görə, Şuşa tarixi Azərbaycan şəhəri kimi dünyada tanınacaq.

Şuşanın bütün tarixinin, tarixi şəxsiyyətlərin evlərinin, abidələrinin, kəhrizlərinin, karvansaralarının, məscidlərinin, məhəllələrinin yenidən dünyaya təqdim edilməsi ayrı bir hadisə kimi dəyərləndirilməlidir. Onu da qeyd edək ki, Şuşanın bərpası Şuşa şəhərinin baş planı əsasında həyata keçirilir.

Qoruq statusu alan Şuşanın tarixinin yeni mərhələsi başlayıb. Dünya turistlərinin də diqqət mərkəzində olan Şuşanın təbliğatını daha yüksək səviyyədə qurmalıyıq ki, o öz statusunu tam olaraq ifadə edə bilsin.

Bir vaxtlar Şuşa haqqında Corc Keppel yazırdı: "Şəhər hündür qayalı dağların yamacında tikilib. Yamac o qədər dikdir ki, sanki evlər oradan quş qəfəsləri kimi asılıb. Mən zirvəyə çatana kimi iki saat yuxarı qalxmışam".

Uca zirvədə yerləşən Şuşa bu gün də dünyaya öz əzəmətini nümayiş etdirir.

***İradə SARIYEVA***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**